# Qışa hazırlıq başa çatdırılır

Havaların soyuması qışın yaxınlaşmasından xəbər verir. Qəbələdə qış uzun ömürlü olur, həm də sərt keçir. Burada qış həmişə sınaq fəsli sayılıb. Təbiətin bu qarlı-boranlı günlərindən zərərsiz ötüşmək rayonun xidmət təşkilatlarından çox asılıdır. Odur ki, rayonun elektrik təchizatı və qaz xidməti sahəsinin işçiləri qışa yay fəsilindən hazırlıq işləri görməyə başlamışlar. Aldığımız bilgiyə görə elektrik enerjisinin dayanıqlığını artırmaq məqsədilə istismara yararsız dayaqlar yeni metal dayaqlar ilə əvəz olunmuş, sınıq izolyatorlar dəyişdirilmiş, müasir transformatorlar quraşdırılmağa başlanmışdı. Son aylar ərzində 10/0,4 kv-luq transformator yarımstansiyasının 24 ədədində təhlükəsizlik texnikası qaydalarının bərpası üçün 400-A-lik və 250 A-lik ayrıcı quraşdırılmışdır.

Eyni zamanda 19 kilometrə yaxın hava xətlərində 42 min manat dəyərində əsaslı və cari təmiri işləri görülmüşdür. Bu mövsüm həmçinin Bum, Vəndam, Laza, Hacıalılı, Qaradeyn, Mıxıqovaq, Nic, Tüntül, Dızaxlı, Zalam, Zarağan hava xətlərində yenidən qurma işləri aparılmışdır. Ümumilikdə, 75 yararsız dayaq yeni tipli dayaqlarla əvəz olunmuş, 2,5 kilometrdən çox məsafədə yararsız naqil dəyişdirilmişdir. Bundan əlavə şəhər, Zarağan, Vəndam, Tüntül, Bum hava xətlər boyu təhlükə törədən ağaclar budanmış, eləcə də bir neçə yarımstansiyasında əsaslı və cari təmir işləri aparılmış, lazımi yerlərdə avadanlıqlara yağ əlavə edilmişdir.

Qəbələ Xidmət Sahəsi də hazırda öz fəaliyyətini qış mövsümündə əhalnin fasiləsiz təbii qazla təmin edilməsi istiqamətində qurmuşdur. Qışa hazırlıqla əlaqədar bəzi qaz kəmərləri yığılıb qalan çökuntülərdən, borudaxili səth müxtəlif qurğularla təmizlənmişdir. Bundan əlavə Qəbələ Xidmət sahəsinin daxili imkanları hesabına 2.544 p/m müxtəlif diametrli xətlər yenisi ilə əvəz olunmuşdur. Hazırda rayonun əksər kəndləri təbii qazla təmin edilmişdir. İndi əsas diqqət, Bum, Nic qəsəbələrinin və Vəndam qəsəbəsinin Rusyan massivində yaşayan, Qəmərvan, Yengicə, Tüntül kəndlərinin əhalisinə təbii qaz verilməsinə doğru yönəldilib. Nic qəsəbəsində Mətin Qaz İnşaat MMS, Bum qəsəbəsində MRCC (Motein Relia bill and Civie Construstion) MMS təmir tikinti şirkətlərinin işçiləri təbii qaz xətlərinin çəkilişi ilə ciddi məşğuldur. Ümumiyyətlə, son məlumata görə Bum qəsəbəsində 51.971 p/m, Qəmərvan kəndində 4.261 p\m, Nic qəsəbəbəsində 56.728 p/m, Yengicə kəndində 14.608 p/m, Tüntül kəndində 22.474 p/m, Vəndam qəsəbəsinin Rüsyan massivində 7.784 p/m yeni qaz xətti çəkilmişdir.

2015-ci ilin göstəricilərinə görə rayonda təbii qazdan istifadə edən abonentlərin sayı xeyli çoxalmışdır. Keçən ilə görə bu ilin 9 ayında 225 abonent çoxalıb. İndi rayon üzrə əhali abonentlərin ümumi sayı 12071-ə çatdırılmışdır. Bu heç də rayon üzrə kiçik rəqəm deyil. Nəzərə alsaq ki, bu gün təbii qazdan 12 mindən artıq abonent istifadə edir, onda görərik, cari il ərzində rayonda yaşayan əhalinin 80 faizə yaxın təbii qazdan istifadə etmək hüququnu qazanmışdır. Rayonda digər sahələrdə də qışa hazırlıqla əlaqədar operativ tədbirlər görülmüşdür. Belə ki, yerli və respublika əhəmiyyətli avtomobil yollarında təmir işləri aparılmışdır. Eniş və yoxuşu çox olan yollarda isə qum ehtiyatı görülmüşdür.

Göründüyü kimi həm enerji təchizatı, həm də qaz xidməti sahələri öz fəaliyyət dairələrinin regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları çərsivəsində aparılan islahatlara uyğun qurulmasına daha çox üstünlük verirlər. Əsas vəzifə və məqsədləri isə ölkə başçısı cənab İlham Əliyevin tapşırıqlarına əsasən əhalini kifayət qədər qış aylarında elektrik enerjisi və təbii qazla fasiləsiz və təhlükəsiz olraq təmin etməkdən ibarətdir.

**Aslan CƏLİLOV.**

# Təbrik edirik!



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 29 oktyabr 2015-ci il tarixdə Kənd təsərrüfatı işçilərinin təltif edilməsi haqqında sərəncam imzalamışdır. Onların arasında Qəbələ Rayon Baytarlıq İdarəsinin rəisi Bəhman Əmircan oğlu Abdurahmanov da vardır. Bəhman Abdurahmanov Kənd təsərrüfatının inkişafında xidmətlərinə və dövlət qulluğunda səmərəli fəaliyyətinə görə «Tərəqqi» medalı ilə təltif edilmişdir.

Bəhman Əmircan oğlu Abdurahmanovu təbrik edirik və ona kənd təsərrüfatının inkişafında daha böyük uğurlar, qələbələr və can sağlığı arzulayırıq.

# Taxıl əkini davam edir

Rayonumuzun taxıl əkini sahələrində qızğın iş gedir. Havaların əlverişsiz keçməsinə baxmayaraq fermerlər və torpaq mülkiyyətçiləri gələn ilin bol məhsulu üçün payızlıq dənli bitkilərin əkininə yüksək hazırlıqla başlamış və səpini optimal müddətdə başa çatdırmaq üçün işin sürətini gündən-günə artırırlar. Dövlətin gündəlik qayğısından bəhrələnən rayonun taxılçıları keçən ilin müvafiq dövlrünə nisbətən payızlıq dənli bitkilər əkinində xeyli irəlidə gedirlər. Son məlumata görə rayon üzrə 11 min hektara yaxın sahəyə yüksək məhsuldar toxum səpilmişdir. Bundan 4.200 hektarını arpa, qalan hissəsini isə buğda sahələri təşkil edir. 20 min hektara yaxın sahədə şum çıxarılmışdır. Taxıl əkinidə «Gilan» MMC-in «Həsrət» toxumçuluq təsərrüfatının, Bayramkoxalı, Kürd, Qaradeyn, Zalam, Əmirvan, Hacıalılı kəndlərinin və Nic qəsəbəsinin əkinçiləri irəlidə gedirlər. Adı gedən təsərrüfatlar gələn il daha çox yüksək keyfiyyətli toxum və ərzaq məhsulu götürmək üçün aqrotexniki qaydalara üçtünlük verirlər. Bitkilərin normal inkişafı üçün mineral gübrələrin tətbiqi, ziyanvericilərdən qorunması xüsusi diqqət mərkəzindədir. Onlar torpağa havayı bir dən düşməməsinin də qarşısını alır.

Bu il taxılçılar keçən illərdəkindən fərqli olaraq arpa əkini sahələrini xeyli genişləndirilməsini nəzərdə tutub. Bu da səbəbsiz deyil. Çünki rayonda heyvandarlığın inkişafına geniş yer verilir. Yeni iri heyvandarlıq kompleksləri yaradılıb, fərdi təsərrüfatlarda isə mal-qaranın baş sayı xeyli artmışdır. Məhz buna görə də mal-qaranın qüvvəli yemə olan tələbatını maksimum ödəmək məqsədilə arpa əkininə xüsusi diqqət yetirilir.

Təcrübə göstərir ki, taxılçılıqda məhsul istehsalının artımında toxum əsas amildir. Rayonda fəaliyyət göstərən toxumçuluq təsərrüfatları bu baxımdan keyfiyyətli toxum istehsalına üstünlük verirlər. Deməк olar ki, onlar «Bezostiya-1» «Aran», «Qobustan», «Cəlilabad», «Qarabağ» toxum sortları istehsal edərək həm öz təsərrüfatlarında istifadə edir, həm də sərfəli qiymətlə taxılçılıqla məşğul olan təsərrüfatlara satırlar. Bu il taxılçılar səpində onların istehsal etdikləri toxumdan daha çox istifadə edirlər.

Əkin işlərinin fasiləsiz aparılmasında fermerlərin və torpaq mülkiyyətçilərinin yaxın köməkçisi «Aqrolizing» ASC-nin rayondakı filialıdır. Filial taxılçıları mineral gübrələrlə və texnika ilə müntəzəm təmin edir. Hazırda filialın əkin kampaniyasında 80 ədəddən çox müxtəlif növ texnikası səpinlə məşğuldur. Bu da işin sürətini və ahəndarlığını artırır.

Qeyd etmək lazımdır ki, taxılçılar təkcə səpin aparmaqla arxayınlaşmırlar. İndi əsas vəzifə əkilmiş taxıl sahələrinə aqrotexniki qaydada xidmət göstərməkdən ibarətdir. Əkin sahələrində məhsuldarlığı artırmaq üçün zərərli həşəratlara qarşı mübarizə tədbirləride yaddan çıxarmırlar. Rayon bitki mühafizə mərkəzinin mütəxəssisləri vaxtaşırı əkin sahələrində olur, müşahidələr aparır, bitkilərin xəstəlik və ziyanvericilərdən qolrunması üçün aqrotexniki, fiziki-mexaniki, bioloji kimyəvi tədbirlərin aparılmasını təşkil edirlər. Son məlumata görə gəmiricilərə qarşı 1000 hektara yaxın taxıl əkini sahələrində aqrotexeniki, bioloji və kimyəvi mübarizə üsüllarından geniş istifadə edilmişdir və hal-hazırda ziyanvericilərə qarşı mübarizə tədbirləri davam etdirilir.

Bütövlükdə rayonumuzun taxılçıları gələn il daha çox məhsul istehsal etmək əzmi ilə çalışır və taxıl əkinini yaxın günlərdə başa çatırmağı qarşılarına məqsəd qoyublar.

**Elmdar ŞƏRİFOV,**
**RİH-nin baş məsləhətçisi.**

# UNESCO Baş Konfransı çərçivəsində təhsil nazirlərinin görüşü

UNESCO-nun Baş Konfransının 38-ci sessiyasında təhsil nazirlərinin yüksək səviyyəli görüşündə təhsilin inkişafı məsələlərinə toxunulub, növbəti il üçün bu sahədə büdcə layihəsi qəbul olunub.

Görüşdə ölkəmizi təmsil edən təhsil naziri Mikayıl Cabbarov çıxış edib. Nazir çıxışında «İncheon» bəyannaməsinə toxunaraq onun təhsilin inkişafı sahəsində beynəlxalq əməkdaşlığın prosesində mühüm addım olduğunu qeyd edərək təhsil sahəsində göstəriləcək səylərin birləşdirilməsi davamlı inkişaf üçün çox vacib məsələ olduğunu bildirmişdir.

M. Cabbarov eyni zamanda çıxışında bu gün texniki təhsilin Azərbaycanın iqtisadi və regional inkişafın ən mühüm pilləsi olduğunu söyləmiş və bir sıra digər məsələlərə toxunmuşdur.